F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# *Saza və sözə ömür verən ustad*

# *Aşıq Ələsgər – 205*

(Veblioqrafiya)



Məlumat-biblioqrafiya şöbəsi

Ağayeva İranə

Bakı şəhəri, S.Vurğun küçəsi 88

(+99412) 597-08-79, daxili nömrə: 25

info@clb.az | ushaqkitabxanasi@gmail.com | childlibbaku@yahoo.com

instagram.com/childlibazerbaijan

facebook.com/Usaqkitabxanasi

youtube.com/@ChildLibAzerbaijan

twitter.com/childlibaze

© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026.

## Giriş

Aşıq Ələsgər Azərbaycan aşıq sənətinin ən görkəmli nümayəndələrindən biri, qüdrətli sənətkar və şairdir. O, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Ələsgər ömrünün böyük hissəsini Göyçə mahalında keçirmiş, burada zəngin aşıq mühitinin formalaşmasında mühüm rol oynamışdır.

Aşıq Ələsgər sənətə gənc yaşlarından maraq göstərmiş və dövrünün tanınmış aşıqlarından biri olan Aşıq Alının yanında şagirdlik etmişdir. O, ustadının sənət ənənələrini mənimsəməklə yanaşı, sonralar özünəməxsus yaradıcılıq üslubu formalaşdırmışdır. Aşıq Ələsgər həm saz ifaçısı, həm də güclü söz ustası kimi şöhrət qazanmış, Azərbaycan aşıq poeziyasının inkişafına böyük təsir göstərmişdir.

Aşıq Ələsgərin yaradıcılığında məhəbbət, gözəllik, təbiət, insan mənəviyyatı, dostluq, sədaqət və ədalət kimi mövzular mühüm yer tutur. Şair gözəlliyi təsvir edərkən təbiət obrazlarından geniş istifadə etmiş, insanın mənəvi keyfiyyətlərini yüksək qiymətləndirmişdir. Onun şeirlərində xalq dilinin zənginliyi, canlı ifadələr, dərin məna və obrazlılıq diqqəti cəlb edir. Qoşma, gəraylı, təcnis, divani və digər aşıq şeir formalarında yaratdığı əsərlər Azərbaycan folklorunun və klassik aşıq poeziyasının qiymətli nümunələri hesab olunur.

Aşıq Ələsgərin yaradıcılığının əsas xüsusiyyətlərindən biri onun xalq həyatını və xalqın dünyagörüşünü sənətkarlıqla əks etdirməsidir. O, şeirlərində həm şəxsi duyğularını, həm də yaşadığı dövrün ictimai-mənəvi mənzərəsini ifadə etmişdir. Sənətkarın dilinin sadəliyi və təbiiliyi onun əsərlərinin xalq arasında geniş yayılmasına səbəb olmuşdur.

Aşıq Ələsgər yalnız öz dövrünün deyil, sonrakı nəsillərin də aşıq sənətinə güclü təsir göstərmişdir. Onun əsərləri aşıqlar tərəfindən sazla ifa edilmiş, şifahi şəkildə nəsildən-nəslə ötürülmüş və müxtəlif məcmuələrdə toplanaraq nəşr olunmuşdur. Aşıq Ələsgərin adı Azərbaycan aşıq sənətinin inkişafı ilə ayrılmaz şəkildə bağlıdır və onun yaradıcılığı milli ədəbi-mədəni irsimizin mühüm hissəsini təşkil edir. O, 1926-cı ildə doğma kəndi Ağkilsədə vəfat etmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat-biblioqrafiya şöbəsi "Saza və sözə ömür verən ustad – Aşıq Ələsgər" mövzusunda kitabxana fondunda mövcud olan çap məhsullarının tammətnli biblioqrafik siyahısının yer aldığı veblioqrafiya hazırlayaraq virtual oxucuların istifadəsinə təqdim edir.

## Haqqında söylənilən fikirlər

- Xalq dilinin ən gözəl xüsusiyyətlərini bilən, bu dili yüksək şeir səviyyəsinə qaldıran Ələsgərdə məyyən bir fikir ifadə etməyən süni misralara rast gəlmirik.

**Mehdi Hüseyn**
Azərbaycan yazıçısı, nasir, dramaturq

- Aşıq Ələsgərin yaradıcılığı Azərbaycan poetik fikrinin inkişafında parlaq və gözəl bir səhifədir ki, o, insanın ürəyində doğrudan da çox nəcib duyğular oyadır, insana böyük zövq və ləzzət verir.

**Mirzə İbrahimov**
Xalq yazıçısı

- Aşıq Ələsgər yaradıcılığı gözəlliklə, bu qeyri-adi sözün geniş, fəlsəfi mənasında, müdrikliklə, bəşər idrakının kamilliyi ilə çalxalanan dərin, sirli-sehrli, müəmmalı, möcüzəli, tilsimli bir ümmandır! Bu ümmanın dərinliklərinə baş vurduqca hətta poeziyanı az-çox bilən, onu sevən insan Ələsgər dühasının düşüncə, fikir tərzinin poetik-fəlsəfi ifadəsini bütövlüklə başa düşmək qarşısında aciz qalır.

- Dədə Ələsgər Sözü, poeziyası alnına Tanrının möhür qoyduğu kamil insan təxəyyülünün, təfəkkürünün ifadə edə biləcəyi sirli, müəmmalı, sehrli, gözəlliklə, nurla, hikmətlə, müdrikliklə nəfəs alan möcüzəli bir şeir dünyasıdır.

- Dədə Ələsgər möcüzələrlə dolu yaradıcılığının dərinliyinə, rəngarəng çalarına, poetik dəyərinə görə Azərbaycan-Türk ədəbi irs xəzinəsində, İslam və təsəvvüf dünyasında Mövlana, Yunus Əmrə kimi dühalarla yanaşı duran, haqlı olaraq aşıq poeziyasının zirvəsi hesab edilən cahanşümul dini-fəlsəfi-poetik dühadır.

**Əläddin Allahverdiyev**
Azərbaycanlı alim, professor

- Aşıq poeziyası Dədə Ələsgərlə əlçatmaz, ünyetməz bir zirvəyə ucaldı. Bütün qüdrətli sufi sənətkarları şəriət, təriqət, mərifət mərhələlərini keçib, həqiqətə, haqqın ulu dərgahına qovuşmaq istəyi ilə çırpındığı halda, ona bu haqqı haqqın özü bəxş eləmişdi.

- Haqqın ulu dərgahına ucalmaq lazım deyildi Göyçənin bu qüdrətli oğluna. O, haqqın ulu dərgahından qopub şəriəti, təriqət və mərifəti insanlara anlatmaq, onları həqiqətə, haqqa qovuşdurmaq üçün gəlmişdi bu dünyaya.

**Hüseyn İsmayılov**
professor

- Haqdan gələn dərin təbi, qaynar ilhamı, fitri istedadı, güclü hafizəsi sayəsində saz-söz dünyamızın korifeyinə çevrilən Ələsgər aşıq poeziyasının Nizamisi, bütün Şərq dünyasının günəşi sayılır.

**Tərlan Göyçəli**
şairə

❖ Təbiət haqqında deyə bilmədiyimizi, duyğu və düşüncələri bizim xalqımızın adından ustad Aşıq Ələsgər xeyli sadə və həm də çox səmimi şəkildə deməyi bacarmışdır.

**Əhməd Şmide**
ədəbiyyatşünas, türkoloq

❖ Peyğəmbərlərdən gələn böyük missiyanın Dədə Qorqud, Əl-Qəzali, Əhməd Yasəvi, Nizami, Mövlana, Yunus Əmrə və Fizuli kimi əzəmətli daşıyıcılarından olan Dədə Ələsgər ilahi və dünyəvi gözəllikləri mükəmməl şəkildə qovuşdurmuş, sadə el dilində, gözəl üslubda və özünəməxsus biçimdə bəşriyyətə anlatmışdır.

**Nuru Bayramov**
Professor

❖ Aşıq Alının şəyirdləri arasında Aşıq Ələsgərin xüsusi dəsti-xətti, mövqeyi və böyüklüyü diqqəti çəkir. Ələsgərin yetişməsində Alının böyük xidməti olduğu kimi, Alının da uca şöhrət sahibi olmasında Ələsgər kimi çox istedadlı bir şəyirdinin olmasıdır. Bəlkə də Ələsgər kimi bir müdrik söz sərrafının yetişməsi üçün Ulu Tanrı Aşıq Alını yaratmışdı.

**Eldar İsmayıl**

şair, yazıçı, publisist

❖ Peyğəmbərlərin sonuncusu Məhəmməd peyğəmbər, Peyğəmbər aşıqların sonuncusu isə Aşıq Ələsgərdir. Özü demişkən, o, təriqətdən keçmiş, mərifətə yetmiş, həqiqət məqamına çatmış və bu zirvələrdən hər birində də kamilliklə qoşa – müdriklərə həqiqətdən "dərs verənlə" yanbayan dayanmışdır:

Eşq ilə sevdanın kökü
Keçib cismi-canımdadı,
Şeyxlərə ol dərsi verən
İndi mənim yanımdadı!

❖ Əlbəttə, belə düşünməklə mən Göyçədə Ələsgərdən sonrakı ustad aşıqların – Şişqayalı şair Aydının, Mirzə Bəylərin, Zodlu Usta Abdullanın, Alçalı Məhərrəmin, Şair Hacı Əliş ağanın, Çoban Məhəmmədin, Növrəs İmanın, onlarla digər adların əhəmiyyəti üstünə kölgə salmaq istəmirəm. Əksinə, məncə, onlar hamısı özlərini bədii ənənədə intibah dövrünün – "Ələsgər dövranı"nın sakiləri hesab etməklə fəxr edə bilərlər.

**Yaşar Qarayev**
professor

❖ Şeirlərinin məzmunu və bədii dəyəri ilə heç bir aşıqla müqayisəyə gəlməyən Aşıq Ələsgər dodaqdəyməz, dildönməz, müstəzad təcnis, ərəb əlifbasının 28 hərfinin sıralandığı "əlif-lam" yaratmaqla Azərbaycan aşıq şeiri tarixində belə formalı şeir şəkillərinin əsasını qoymuşdur.

**İslam Ələsgər**
Filologiya elmləri namizədi, Ələsgərşünas alim

❖ Dədə Ələsgərin yaradıcılığını türk xalqının ensiklopediyası adlandırmaq olar. Ələsgər şeiri Azərbaycan ruhunun güzgüsüdür.

**Tamilla Əliyeva**
Filologiya elmləri namizədi

❖ Dədə Ələsgər poeziyasının monumentallığı, onun hər sətirinin polimentallığından yaranır.

**Abbas Bağırov**

Tibb üzrə fəlsəfə doktoru

## Rəssamlar tərəfindən çəkilmiş portretləri



Rəssam: Böyükağa Mirzəzadə



Rəssam: Cabbar Quliyev



Rəssam: Sadıq Şərifzadə



Rəssam: Nailə Ələsgərova

## Xatirəsinin əbədiləşdirilməsi



Aşıq Ələsgərin heykəlinin Bakı şəhərində açılışı 30 sentyabr 2024-cü ildə olub. Heykəlin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, dövlət rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak edib.

Abidə Rəşid Behbudov və Bakıxanov küçələrinin kəsişməsindəki parkda ucaldılıb. Heykəlin müəllifi xalq Rəssamı Natiq Əliyev, memarı isə Azərbaycan Rəssamlıq Akademiyasının baş müəllimi Malik Babayevdir.

Abidə Bakı şəhərində aşıq sənəti nümayəndəsinin şərəfinə ucaldılmış ilk monumentdir.




Ustad Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyi ilə əlaqədar olaraq, “Dədə Ələsgər Ocağı” İctimai Birliyi “Aşıq Ələsgər – 200” yubiley medalını təsis edib.

“Aşıq Ələsgər – 200” yubiley medalı ilə Azərbaycan aşıq poeziyasının inkişafında xüsusi xidməti olan və aşıq poeziyasında uğurlar qazanmış, habelə Azərbaycan aşıq poeziyasının inkişafında, tanıdılmasında fəal iştirak edən şəxslər təltif edilirlər.

Medalın hazırlanmasının ideya müəllifi Xətai Ələsgərli, eskizinin tərtib edib dizayn edəni isə Vüsal Əmirovdur.

Medal “Dədə Ələsgər Ocağı” İctimai Birliyinin sifarişi əsasında Ukraynada 200 ədəd hazırlanıb.




Aşıq Ələsgərin 1972-ci ildə keçirilən 150 illik yubiley tədbirlərində iştirakçıların hər birinə təqdim edilmək üçün xatirə medalı hazırlanmışdı. Medalın eskizinin müəllifi tanınmış kino rəssamı Ağamehdi Qumriyev idi. Azərbaycan SSR Mədəniyyət Nazirliyinin sifarişi əsasında Riqa şəhərində bu medallardan 3 min ədəd buraxılmışdı.




“Aşıq Ələsgər” gəmisi Azərbaycana məxsusdur. Hazırda istifadə müddəti başa çatmışdır. Bakının Bibiheybət qəsəbəsində yerləşən limanda saxlanılır. Gəmi illər öncə Xəzərin sularında üzüb.




Aşıq Ələsgərin doğulduğu Ağkilsə kəndində 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyi ilə əlaqədar ucaldılmış qəbrüstü büstdür. Hazırda erməni işğalında olduğundan mövcudluğu haqqında məlumat yoxdur.



Heykəl Gədəbəy Aşıq Musiqisi Məktəbinin qarşısında 2013-cü ildə ucaldılmışdır. Heykəl Gədəbəy şəhərində “İ.Mirzəyev küçəsi” 2 ünvanında yerləşir.

**Sözlərinə yazılmış musiqi əsərləri**

“Çərşənbə günündə, çeşmə başında” İfa edən: Zeynəb Xanlarova

“Dübeyti” İfa edən: Aşıq Şahbaz Göyçəoğlu

“Göyçə gözəlləməsi” İfa edən: Aşıq Talıb

“Gözəl” İfa edən: Sahibə Əhmədova

“Güləndam” İfa edən: Gülyanaq Məmmədova

“Güllü” İfa edən: Ehtiram Hüseynov

“Hər yetən gözələ gözəl deməræm” İfa edən: Ramiq Bayramov

“Qadan alım” İfa edən: Xanım Göyçəli

“Qaşı, gözü qara ceyran” İfa edən: Sahil Qurbanov

“Qəhrəmanı” İfa edən: Aşıq Fətulla

“Qəmərcan” İfa edən: Həqiqət Rzayeva

“Olan oldu” İfa edən: Nərminə Məmmədova

“Sarı köynək” İfa edən: Reyhan Rəcəbova

“Sona keçdi” İfa edən: Əbülfət Əliyev

“Söz qanan ola” İfa edən: Şövkət Ələkbərova

“Tellərin” İfa edən: Səmayə İsmayılova

“Telli” İfa edən: Teymur Mustafayev

“Yanıram mən” İfa edən: Yalçın Rzazadə

## Kitabları




[Seçilmiş əsərləri : şeirlər / tərtib edəni, ön sözün və qeydlərin müəllifi İ. Ələsgərov. - Bakı : Yazıçı, 1988. - 184 s. – kiril əlifbası ilə.]

Kitabda Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndəsi Aşıq Ələsgərin seçilmiş şeirləri toplanmışdır. Əsərlərdə məhəbbət, təbiət, insan gözəlliyi, mənəvi dəyərlər və xalq həyatına dair mövzular zəngin poetik ifadə vasitələri ilə əks olunur.

[Əsərləri : şeirlər, dastan-rəvayətlər / Aşıq Ələsgər ; tərt.ed., ön söz İ. Ələsgər ; bur. məsul Ə. Güləliyev ; tex. red. R. Ağayev ; tərt.ed., rəs. N. Əliyeva. - Təkrar nəşr . - Bakı : Şərq-Qərb, 2004. - 400 s. : il. ; 22 sm.]




Kitabda Aşıq Ələsgərin zəngin yaradıcılığından seçilmiş şeirlər, dastan və rəvayətlər toplanmışdır. Əsərlərdə xalqın həyat tərzi, adət-ənənələri, məhəbbət, dostluq, mərdlik və mənəvi dəyərlər öz əksini tapır.




[Bütün əsərləri / tərt. ed. və red. Q. Zimistanoğlu. - Bakı : OL MMC, 2014. - 486, [1] s., [8] v. portr., fotoşək., faks. : portr. ; 21 sm.]

Kitabda Aşıq Ələsgərin zəngin ədəbi irsi bütöv şəkildə təqdim olunur. Topluda şeirlər, qoşmalar, gəraylılar, təcnislər, dastan və rəvayətlər, eləcə də sənətkarın digər əsərləri yer alır.

[Can deməklə candan can əskik olmaz : şeirlər / Bakı : Kitab Klubu, 2014. - 320 s. ; 20 sm.]




Kitabda Aşıq Ələsgərin seçilmiş şeirləri toplanmışdır. Şeirlərdə məhəbbət, insan gözəlliyi, dostluq, sədaqət, təbiət və mənəvi dəyərlər kimi mövzular poetik dillə ifadə olunur.




Gözüm bir alagöz xanıma düşdü / Aşıq Ələsgər ; tərt. ed. M. Qaradaşlı ; red. F. Rzabəyova. - Bakı : Yazıçı, 1993. - 144 s. ; 15 sm. – kiril əlifbası ilə.

Kitabda Aşıq Ələsgərin məhəbbət mövzusunda yazılmış şeirləri toplanmışdır. Əsərlərdə sevgilinin gözəlliyi, məhəbbət və heyranlıq hissləri aşığın özünəməxsus poetik dili ilə ifadə olunur.




Hikmət dünyası / tərt. ed. və red. E. İsmayıl. - Bakı : Ağrıdağ, 1997. - 40 s., portr. ; 15 sm. – kiril əlifbası ilə.

Kitabda Aşıq Ələsgərin yaradıcılığında mühüm yer tutan hikmətli, nəsihətamiz və fəlsəfi məzmunlu şeirlər toplanmışdır. Əsərlərdə insanın mənəvi kamilliyi, düzgünlük, mərdlik, əxlaq və həyatın müxtəlif həqiqətləri poetik şəkildə ifadə olunur.




Lirika : gəraylılar, qoşmalar, təcnislər, müxəmməslər / tərt. ed.: M. P. Qasımlı, M. Nəbioğlu ; red. A. Məmmədli ; Azərbaycan Aşıqlar Birliyi. - Bakı : Zərdabi nəşr MMC, 2020. - 184 s. ; 19 sm.

Kitabda Aşıq Ələsgərin gəraylı, qoşma, təcnis və müxəmməsləri toplanmışdır. Əsərlərdə məhəbbət, təbiət, gözəllik, insan duyğuları və mənəvi dəyərlər özünəməxsus poetik üslubda ifadə olunur.




Şeirlər, dastan - rəvayətlər, xatirələr = Стихи эпос-повествования воспоминания = Verses epos - marrations reminiscences / Aşıq Ələsgər ; toplayan, tərt.ed. İ. Ələsgər ; red. Dilsuz ; naşir Q. İsmayıloğlu ; bədii red. İ. İsmayılov ; tex. red. A. Dənzizadə. - Bakı : Çinar-çap, 2003. - 496 s. : portr. ; 22 sm.

Kitabda Aşıq Ələsgərin şeirləri, dastan-rəvayətləri və onun haqqında xatirələr toplanmışdır. Əsərlərdə xalq həyatı, məhəbbət, təbiət, insan münasibətləri və mənəvi dəyərlər əks olunur.

## Haqqında kitablarda




Aşıq Ələsgər - 190 : Biblioqrafiya / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanası ; tərt.ed.: S. Əsədova, G. Misirova ; bur. məsul, ixtisas red. K. M. Tahirov ; red. M. Ə. Vəliyeva. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2011. - 149 s. ; 20 sm.

Biblioqrafik göstəricidə Aşıq Ələsgərin həyat və yaradıcılığı, ədəbi irsi və Azərbaycan aşıq ədəbiyyatındakı mövqeyi ilə bağlı materiallar toplanmışdır. Göstərici Aşıq Ələsgərin yaradıcılığını araşdıran tədqiqatçılar və ədəbiyyatşünaslar üçün faydalı mənbədir.




Aşıq Ələsgər / toplayanı İ. Ələsgərov ; tərt. ed. Ə. Axundov, M. H. Təhmasib ; red. H. Araslı ; AzSSR EA, Nizami ad. Ədəbiyyat İn-tu. - Bakı : AzSSR EA, 1963. - 486, [2] s. : şək., portr. ; 16 sm. – kiril əlifbası ilə.

Kitabda Aşıq Ələsgərin həyat və yaradıcılığı, qoşma, gəraylı, təcnis və başqa əsərləri yer almışdır.



Aşıq Ələsgər : şeirlər / toplayanı H. Əlizadə ; red. S. Hüseyn ; bədii tərt. Ə. Hacızadə. - Bakı : Azərnəşr, 1935. – 234 s.

Kitabda Aşıq Ələsgərin seçilmiş şeirləri toplanmışdır. Şeirlərdə məhəbbət, təbiət, gözəllik, insan duyğuları və mənəvi dəyərlər xalq ruhuna yaxın, səmimi poetik dillə ifadə olunur.




Aşıq Ələsgər / toplayan İ. Ələsgər ; nəşrə hazırlayan və yeni qeydlərin müəllifi F. Rüstəmli ; elmi red. E. Məmmədli ; nəşriyyat red. S. Abbaslı ; layihə rəhbəri M. Kazımoğlu-İmanov. - Bakı : Elm və təhsil, 2021. - 584 s.

Kitabda Aşıq Ələsgərin həyat və yaradıcılığı, qoşma, gəraylı, təcnis və başqa əsərləri yer almışdır.




Aşıq Ələsgərin hikmət dünyası / Azərbaycan Aşıqlar Birliyi ; tərt. ed. İ. Ələsgər ; məsl. Z. Yaqub ; red. M. Nəbioğlu. - Bakı : Elm və təhsil, 2011. - 30, [2] s. ; 16 sm.

Kitabda Aşıq Ələsgərin hikmətli və fəlsəfi məzmunlu şeirləri toplanmışdır. Əsərlərdə insanın mənəvi dünyası, əxlaq, mərdlik, doğruluq, həyat və insan münasibətləri haqqında müdrik fikirlər əks olunur.




**Ülvi, A.** Heç demirsən Ələsgərim hardadır ?! : məqalələr / elmi red. İ. Məmmədli ; red. N. İsmayılov ; rəyçilər Ə. Cabbarlı, Ü. Nəbiyeva, S. İsmayılova ; məsul katib E. Səmədova ; texniki red. A. Süleymanlı. - Bakı : Optimist MMC, 2022. - 130 s.

Kitabda Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuş məqalələr toplanmışdır. Məqalələrdə sənətkarın ədəbi irsi, yaradıcılığının əsas xüsusiyyətləri və Azərbaycan aşıq ədəbiyyatındakı mövqeyi müxtəlif aspektlərdən araşdırılır.




Dədə Ələsgər / Avrasiya Beynəlxalq Araşdırmalar İn-tu İB, Nəfəs, Regional Hüquqi və İqtisadi Maarifləndirmə İctimai Birliyi ; layihə rəhbəri Q. Paşayeva ; topl. İ. Ələsgər ; red. A. Yaquboğlu ; nəşrə məsul A. Bağırova. - Bakı : CBS PP, 2021. - 303, [1] s. : ill., şək. ; 24 sm.

Kitab Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuşdur. Nəşrdə sənətkarın zəngin ədəbi irsi, sənət dünyası və Azərbaycan aşıq ədəbiyyatındakı mövqeyi haqqında məlumat verilir.



Ələsgər ocağı : şeirlər / toplayan və tərtib edən İ. Ələsgər ; red. Cəlilxan Yaqub. - Bakı : Yazıçı, 1991. - 304 s. ; 20 sm. – kiril əlifbası ilə.

Kitabda Aşıq Ələsgərin seçilmiş şeirləri toplanmışdır. Əsərlərdə məhəbbət, təbiət, gözəllik, insan duyğuları və mənəvi dəyərlər aşığın özünəməxsus üslubunda ifadə olunur.




[Ustad aşıqlarımız : Aşıq Ələsgər / tərt. ed. və nəşrə hazırlayanı M. Nəbioğlu. - Bakı : Elm və təhsil, 2012. - 280 s.]

Kitab Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuşdur. Nəşrdə ustad aşığın yaradıcılıq yolu, sənətkarlıq xüsusiyyətləri və Azərbaycan aşıq sənətinin inkişafındakı rolu haqqında məlumat verilir.

[Nəzərova, A. Aşıq Ələsgər yaradıcılığında sufizm / A. H. Nəzərova ; ön sözün müəllifi və elmi red. N. Cəfərov ; red. Ş. Ağayar ; AMEA Folklor İnstitutu. - Bakı : Elm və təhsil, 2023. - 245, [3] s. : portr., fotoşək. ; 21 sm.]




Kitabda Aşıq Ələsgərin yaradıcılığında sufizmin təsiri və sufi dünyagörüşünün poetik əksi araşdırılır. Əsərdə sənətkarın şeirlərindəki fəlsəfi, mənəvi və irfani motivlər təhlil edilir, onların sufi düşüncəsi ilə əlaqəsi göstərilir.




[Nəbiyeva, A. Milli-mədəni irsimiz: Aşıq Ələsgərin lirikası / A. V. Nəbiyeva ; red. S. H. Orucova ; Bakı Dövlət Universiteti. - Bakı : BDU nəşriyyatı, 2022. - 256 s.]

Kitabda Aşıq Ələsgərin lirikası milli-mədəni irsin mühüm tərkib hissəsi kimi tədqiq edilir. Müəllif sənətkarın yaradıcılığında xalq düşüncəsinin, milli-mənəvi dəyərlərin, məhəbbət və təbiət duyğularının bədii ifadəsini araşdırır.

## Haqqında dövri mətbuatda

**Akimova, E.** Aşıq Ələsgər - sözün yaddaş abidəsi / Elnarə Akimova // Ədəbiyyat qəzeti. - 2024. - 5 oktyabr. - № 38. - S. 16.

**Allahverdiyev, Ə.** Aşıq Ələsgər fenomeninə günümüzün poetik baxışı / Ələddin Allahverdiyev // Xalq qəzeti. - 2025. - 15 yanvar. - № 8. - S. 10.

**Allahverdiyev, Ə.** Milli-mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmiş dahi sənətkar : Aşıq Ələsgər – 200 / Ələddin Allahverdiyev // Xalq qəzeti. – 2021. – 30 mart. – S. 6.

**Aslan, Q.** XIX əsrin müdrik ozanı, el sənətkarı / Qədir Aslan // Respublika. - 2024. - 10 oktyabr. - № 222. - S. 8.

**Aydınoğlu, T.** Göyçə soyqırımı Aşıq Ələsgər yaradıcılığında / Tahir Aydınoğlu // Xalq qəzeti. - 2025. - 16 avqust. - № 171. - S. 9.

**Azəri, L.** Aşıq Ələsgərin 200 illiyinin son sənət axşamı / Lalə Azəri // Mədəniyyət : qəzet. - 2022. - 7 yanvar. - № 1. - S. 3.

**Azəri, L.** Ələsgər sözü musiqi qanadları altında : Saz-söz ustadının 200 illik yubileyinə sözardı / Lalə Azəri // Mədəniyyət : qəzet. - 2022. - 11 fevral. - № 12. - S. 5.

**Balakişiyev, S.** Hörümçək torunun açılması : Aşıq Ələsgər - 200 / Salman Balakişiyev // 525-ci qəzet. – 2021. – 20 oktyabr. – S. 19.

**Bayramova, Y.** Aşıq sənətimizin zirvəsi : Dədə Ələsgərin anım günüdür / Yeganə Bayramova // Yeni Azərbaycan. - 2024. - 7 mart. - № 44. - S. 8.

**Bayramova, Y.** Söz sərrafı / Yeganə Bayramova // Yeni Azərbaycan. - 2025. - 9 iyul. - № 116. - S. 8.

**Bayramova, Y.** Söz-saz sənətimizin Ulu Çinarı... : Aşıq Ələsgərin anım günüdür / Yeganə Bayramova // Yeni Azərbaycan. - 2023. - 7 mart. - № 42. - S. 8.

**Bayramova, Z.** Saz-söz dünyasının ustadı - Aşıq Ələsgər / Zümrüd Bayramova // Səs. - 2024. - 1 oktyabr. - № 179. - S. 2-3.

**Bəşirov, V.** Aşıq sənətinin fədaisi / Vidadi Bəşirov // Azərbaycan : qəzet. - 2022. - 11 yanvar. - № 5. - S. 7.

**Cəfərov, N.** Yusif Nəğməkarın "Ələsgər zirvəsi" / Nizami Cəfərov // Ədəbiyyat qəzeti. - 2024. - 27 dekabr. - № 51/52. - S. 28-29.

**Həbibbəyli, İ.** Aşıq Ələsgərin sənətinə və Vətəninə qayıdışının parolu / İsa Həbibbəyli // 525-ci qəzet. - 2024. - 9 oktyabr. - № 184. - S. 8-9.

Heç demirsən, Ələsgərin hardadır?! : Tədqiqatçı Almaz Ülvinin yeni kitabı ustad aşığa həsr edilib // 525-ci qəzet. - 2022. - 29 yanvar. - № 17. - S. 13.

**Həsənova, E.** Dahiləri bir də belə tanıyaq : Üzeyir Hacıbəyov ; Aşıq Ələsgər / Elenora Həsənova // Respublika. - 2023. - 22 iyul. - № 152. - S. 16.

**Hüseynov, H.** Dədə Ələsgər yaradıcılığında mənəvi-əxlaqi motivlər / Həsən Hüseynov // Mədəniyyət : jurnal. - 2022. - № Yanvar-Fevral (341). - S. 34-37.

**İlyasov, V.** Adım Ələsgərdi, Göyçə mahalım / Vəli İlyasov // İki sahil. - 2024. - 18 yanvar. - № 9. - S. 6.

**Məlikzadə, H.** Yusif Nəğməkar yaradıcılığnda Ələsgər reallığı / Hikmət Məlikzadə // 525-ci qəzet. - 2025. - 8 yanvar. - № 2. - S. 13.

**Məmmədova, M.** Aşıq Ələsgəri xatırlarkən : Çərşənbə günündə, çeşmə başında / Mətanət Məmmədova // Səs. - 2024. - 9 iyul. - № 119. - S. 11.

**Məmmədova, M.** Çərşənbə günündə, çeşmə başında / Mətanət Məmmədova // Səs. - 2024. - 20 mart. - № 52. - S. 8.

**Mikayıl.** Ələsgər möcüzəsi / Mikayıl // Yeni Azərbaycan. - 2022. - 9 iyul. - № 121. - S. 4.

**Nəğməkar, Y.** Dədə Ələsgərin heykəli önündə düşüncələr : poemadan parça / Yusif Nəğməkar // Ədəbiyyat qəzeti. - 2024. - 5 oktyabr. - № 38. - S. 19.

**Nəzərova, A.** Haqq səni sərraf yaradıb : Aşıq Ələsgər şeirində ariflik / Adilə Nəzərova // Ədəbiyyat qəzeti. - 2023. - 27 may. - № 20. - S. 28.

**Nəzərova, A.** Müəmma sıldırımlardan, qoşma gəldiklərdən, dodaqdəyməz, dildəyməz aşırımlardan "Ələsgər zirvəsinə" / Adilə Nəzərova // Ədəbiyyat qəzeti. - 2025. - 17 yanvar. - № 2. - S. 24-25.

**Novruzova, A.** Saz sevdam, söz sevdam :Dədə Ələsgər – 200 / Azadə Novruzova // Füyuzat. – 2021. - № 4.

**Oruc, M.** Göyçədən türk dünyasına / Məmməd Oruc // Ədəbiyyat qəzeti. - 2023. - 30 dekabr. - № 51. - S. 13.

**Qasımov, A.** Telli saz dillənəndə : Aşıq Ələsgərə / Ağəli Qasımov // Ədəbiyyat və incəsənət. – 1972. – 1 aprel.

**Qəhrəmanova, A.** Yaraşır libasın gül əndamına : Aşıq Ələsgər yaradıcılığında qadın geyim mədəniyyəti / Aytəkin Qəhrəmanova // Xalq qəzeti. - 2023. - 21 iyun. - № 130. - S. 9. ; 6 iyul. - № 138. - S. 9.

**Qurbanqızı, Z.** Dədə Ələsgərin abidəsi önündə düşüncələr / Zümrüd Qurbanqızı // Respublika. - 2024. - 13 oktyabr. - № 225. - S. 7.

**Qurbanqızı, Z.** Göyçə mahalıdı mahalım mənim / Zümrüd Qurbanqızı // Respublika. - 2024. - 2 mart. - № 48. - S. 15.

**Rza, Z.** Saz, söz ustadı Aşıq Ələsgər / Zahid Rza // İki sahil. - 2023. - 13 aprel. - № 63. - S. 4.

**Şahin, Ş.** Ələsgərin ruhu məni çağırdı / Şahnaz Şahin // Ədəbiyyat qəzeti. - 2025. - 23 may. - № 18. - S. 30.

**Xəlilov, Z.** Göyçəli Aşıq Ələsgər abidəsi qayıdışın simvoludur / Zabit Xəlilov // Respublika. - 2024. - 22 oktyabr. - № 232. - S. 7.

**Yaqubqızı, R.** Ələsgərəm hər elmdən halıyam / Ramidə Yaqubqızı // Respublika. - 2025. - 2 mart. - № 47. - S. 11.